*UOT159.9*

***Xavərxanım Ağamehdi qızı Bakıxanova***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
https://orcid.org/0000-0002-3031-5770
https://doi.org/10.69682/arti.2024.91(4).161-165

# SOSİO-EMOSİONAL ÖYRƏNMƏNİN EMOSİONAL İNTELLEKTİN İNKİŞAFINA TƏSİRİ

***Хаварханум Агамехди гызы Бакиханова***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# ВЛИЯНИЕ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ОБУЧЕНИЯ НА РАЗВИТИЕ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА

***Khavarkhanim Aghamehdi Bakikhanova***
*doctorial student in the program of doctor of philosophy*
*of Baku State University*

# THE EFFECT OF SOCIO-EMOTIONAL LEARNING ON THE DEVELOPMENT OF EMOTIONAL INTELLIGENCE

**Xülasə.** Sosio-emosional öyrənmə psixologiya elminin nəzəriyyə və təcrübəsində tədqiqatın ən mühüm sahələrindən birinə çevrilmişdir. Sosio-emosional öyrənmənin araşdırılmasına başlanılmasından az müddət keçməsinə baxmayaraq, nəzəri və tətbiqi tədqiqat sahələrində xeyli təcrübə toplanmış və məlum olmuşdur ki, sosio-emosional öyrənmə emosional intellektin inkişafına birbaşa təsir göstərir. Araşdırmalar sübut edir ki, İQ səviyyəsindən asılı olmayaraq təhsilalanlarda emosional intellektin inkişafına lazımi qədər vaxt ayrılmadığı üçün təhsilalanlar gələcəkdə ciddi uğursuzluqlarla üzləşirlər. Emosional intellektin inkişafını dəstəkləyən ən əlverişli layihə isə sosio-emosional öyrənmədir. Təəssüflər olsun ki, sosio-emosional öyrənmənin tədqiqinə yönəlmiş müəyyən qədər tədqiqatlar həsr olunsa da hələ ki, kifayət edəcək qədər deyildir. Lakin emosional intellektin inkişafına olan tələbat və sosio-emosional öyrənmənin bir çox ölkələrin təhsil siyasətində dəstəklənməsi qısa zamanda bu layihə barədə geniş tədqiqatlar aparılmasına və uğurlu nəticələrə nail olunmasına gətirib çıxarmışdır. Psixoloqlar tərəfindən aparılan işlər göstərir ki, ölkədə bu istiqamətdə görüləcək işləri sürətləndirmək üçün böyük potensial var. Xüsusilə söhbət məktəbəqədər təhsil müəssisələri, orta məktəblər və ali təhsil müəssisələrinin fəaliyyətindən gedir.
***Açar sözlər**: emosional intellekt, sosio-emosional öyrənmə, iş, təhsil, intellekt*

**Аннотация.** Социально-эмоциональное обучение стало одним из важнейших направлений исследований в теории и практике психологической науки. Хотя с момента формирования социально-эмоционального обучения прошло не так много времени, в области теоретических и прикладных исследований накоплен большой опыт, и известно, что социально-эмоциональное обучение оказывает непосредственное влияние на развитие эмоционального интеллекта. Исследования доказывают, что независимо от уровня IQ школьников в будущем ждут серьезные неудачи, поскольку они не уделяют достаточно времени развитию эмоционального интеллекта. Наиболее благоприятным проектом, поддерживающим развитие эмоционального интеллекта, является социально-эмоциональное обучение. К сожалению, поскольку социально-эмоциональное обучение формируется недавно, богатой литературы по нему нет. Однако потребность в развитии эмоционального интеллекта и поддержке социально-эмоционального обучения в образовательной политике многих стран привела к проведению обширных исследований по этому проекту и достижению успешных результатов. Проведенная

психологами работа показывает, что существует большой потенциал для активизации работы в стране. В частности, речь идет о деятельности дошкольных образовательных учреждений, средних школ и высших учебных заведений.

***Ключевые слова:*** *эмоциональный интеллект, социально-эмоциональное обучение, работа, образование, интеллект*

**Abstract.** Socio-emotional learning has become one of the most important areas of research in the theory and practice of psychological science. Although not much time has passed since the formation of socio-emotional learning, a lot of experience has been collected in the fields of theoretical and applied research, and it is known that socio-emotional learning has a direct impact on the development of emotional intelligence. Studies prove that regardless of IQ level, students face serious failures in the future because they do not have enough time to develop emotional intelligence. The most favorable project supporting the development of emotional intelligence is socio-emotional learning. Unfortunately, since socio-emotional learning is still emerging, there is no rich literature on it. However, the demand for the development of emotional intelligence and the support of socio-emotional learning in the education policy of many countries led to conducting extensive research on this project and achieving successful results. The work carried out by psychologists shows that there is great potential to make work more active in the country. In particular, we are talking about the activities of pre-school educational institutions, secondary schools and higher educational institutions.

***Keywords****: emotional intelligence, socio-emotional learning, work, education, intelligence*

**Problemin aktuallığı** ilə bağlı qeyd etmək lazımdır ki, təhsilalanlar verilən informasiyanı yaxşı mənimsəmələrinə, repetitor yanına gedib yüksək balla ali təhsil müəssisələrinə qəbul olmaqlarına baxmayaraq bir çox hallarda təhsillərini başa vura bilmir və ya fərqlənmə ilə təhsillərini başa vursalar da iş həyatlarında uğurlu nəticələr müşahidə olunmur. Digər tərəfdən orta təhsil müəssisələrində təhsil alan şagirdləri dinləsək şahidi olarıq ki, dəqiq elmlərin dərs saatı çox olduğu üçün şagirdlər narazılıq edir. Mənəvi zövq ala biləcəkləri, dincələcəkləri fənlərə isə çox az saat ayrılır və çox vaxt həmin fənlərin dərs saatında da müəllimlər dəqiq elmləri tədris edirlər. Bu da emosional intellektin formalaşmasına əngəl törədir. Buna görə təhsilalanlar tədris prosesindən yorulur ki, bu da bir sıra xoşagəlməz hallarla nəticələnir. Təhsilalanlarda müşahidə olunan xroniki yorğunluq, dərsə gecikmək, tədris prosesinə laqeyd münasibət, dərsdən qaçmaq, tədris prosesində özünü təsdiq edə bilmədikləri üçün qeyri-leqal qruplara qoşulmaq, erkən nikah və s. bu qəbildən olan hallardır.

Bundan əlavə, müşahidələr göstərir ki, tələbələr ali təhsil müəssisəsinə qəbul olmağı ağır məktəb rejimindən xilas kimi qəbul edirlər. Lakin daha ciddi rejimdə tədris prosesi ilə qarşılaşmaları və daha sonra işə qəbul və işdə yüksəliş üçün yenə imtahan prosesindən keçməli olduqlarını öyrənəndə frustrasiya yaşadıqları müşahidə olunur. İşə qəbul edənlərin uğurlu kadr axtarışı və iş sahəsində olan rəqabətə çox vaxt təhsil göstəricisindən asılı olmayaraq məzunlar tab gətirə bilmir. Məsuliyyətlər, cəmiyyətin gözləntiləri, maddi problemlər, özünü aktuallaşdırma arzusu və digər amillər bir çox psixoloji problemlərin ortaya çıxmasına səbəb olur ki, bu da insanların çıxış yolunu narkotik, içki, qumar və digər aludəçilik yaradan özlərini məhvə aparan vasitələri seçmələri ilə nəticələnir. İndiyə qədər tədris prosesinin keçdiyi inkişaf yolu, onun nəzəri-metodoloji əsasları daima elmi ictimaiyyətin diqqət mərkəzindədir. Gələcəkdə xoşbəxt, savadlı, özlərini təsdiq etməyi bacaran şəxsiyyətlər yetişdirmək üçün yeni təhsil sistem və layihələrini təhlil etmək çox vacibdir.

**Problemin işlənmə dərəcəsi** barədə demək olar ki, qərb ölkələrində tədqiqatlar müxtəlif istiqamətlər üzrə təxminən XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən aparılmağa başlanmışdır. Bu qəbildən olan tədqiqatlar aparan tədqiqatçılara N.N. Naydenova, D. Qoulman, J.M. Elias, E. Joseph, M. Pişkin, K. Rigby, D. Neft, D. Olweus və başqalarının adlarını çəkə bilərik. Ölkəmizdə isə sosio – emosional öyrənmə, emosional intellekt barədə tədqiqatlar, ədəbiyyatlar azlıq təşkil edir. Prof. K. Əliyevanın "Şəxsiyyətin formalaşmasında emosional intellektin rolu" adlı monoqrafiyasını nəzərə almasaq, demək olar ki, yox dərəcəsindədir. Buna görə də bu sahənin araşdırılmasına xüsusi ehtiyacın olduğu müşahidə olunur.

**Məqsəd və vəzifələr**. Bu məqalədə biz qarşımızda sosio-emosional öyrənmənin emosional intellektin inkişafına təsirini və aralarındakı əlaqəyə nəzər yetirmək vəzifəsini qoyduq. Tədqiqatın əsasında elmi ədəbiyyatın, müxtəlif tarixi faktların təhlili durur.

**Əldə edilən nəticələr**. Bir çox hallarda şahidi oluruq ki, təhsilli, savadlı, dünyagörüşlü və digər bu kimi müsbət keyfiyyətlərə sahib olan əksər şəxslər perspektivlərini nümayiş etdirə bilmir və ondan qat-qat aşağı göstəricilərə sahib şəxslər isə daha yaxşı işlərdə çalışır, daha göz önündədir. Psixoloji araşdırmalar aparılan zaman uzun müddət İQ (*intelligence quotient*) – intellektin və ya zəkanın kəmiyyət göstəricisi həll edici rol oynadığı təqdirdə məlum oldu ki, İQ səviyyəsi yüksək olan bir çox şəxslər həyatda uğur qazana bilmir. Buna misal olaraq çox yüksək balla ali təhsil müəssisənə daxil olan gənclərin bəzi hallarda təhsilini dayandırması, dərslərə məsuliyyətsiz yanaşmasını misal göstərmək olar. Bir çox hallarda isə ali təhsilini yüksək göstəricilərlə başa vurmasına baxmayaraq ixtisasına uyğun olmayan, ali təhsil tələb etməyən işlərdə gənc məzunların çalışması ürək ağrıdan haldır.

Təhsilalanların dərsə getmək istəməməsi, dərsdən qaçması, qeyri-leqal qruplara qoşulması, yaş dövrlərinə uyğun olmayan fəaliyyət sahələrinə meyl göstərmələri (təhsil alıb işsiz qalacam indidən pul qazanım), məzunların rəhbərlərin gözləntilərini qarşılaya bilməmələri, tez-tez müşahidə olunan kadr dəyişiklikləri problemin ciddiliyindən xəbər verir.

Yaponiyanın təhsil siyasətinə nəzər saldıqda aydın olur ki, təhsilalanlardan ibtidai sinifdə dərs tələb olunmur. Bunun əvəzində özünü idarə, özünü kəşf etmə, ətraf aləmi dərk etmə istiqamətində əyləncəli fəaliyyətlər təşkil olunur. Dərs zamanı təhsilalanların dincəlməsinə şərait yaradılır. Vurma cədvəlini əzbərləmirlər. Cədvələ baxaraq hesablama aparırlar. Sual yaranır necə olur ki, onlar təhsil sahəsində belə siyasətlə bu qədər uğurludurlar? Diqqət yetirsək görərik ki, onlar emosional intellektin inkişafına yatırım edirlər.

Emosional intellekt nədir? Niyə digər ölkələrdə, xüsusən də bizdə bu günə qədər onun inkişafına yatırım olunmurdu? Platon hələ eramızdan əvvəl qeyd edirdi ki, hər tip öyrənmənin emosional bir təməli var. Emosional intellekt 1980-ci ildə H. Gardne, J. Mayerin tədqiqatları nəticəsində meydana çıxsa da, 1995-ci ildə Daniel Qoulman "Emotional İntelligence" adlı kitabı vasitəsilə termin kimi istifadə olunmağa başlanıldı.

Emosional intellektin strukturu özünü tanıma, emosiyaları idarə edə bilmə, özünü aktuallaşdırma, empatiya, münasibətləri davam etdirə bilmə hesab olunur. Emosional intellektin inkişafının uğura aparmasının səbəbi ondan ibarətdir ki, təhsilalanlar davranışlarını tənzimləyə və müəyyən çətinliklər zamanı mövqeyini seçib düzgün qərar qəbul edə bilirlər.

Emosional intellekt iki vacib kompetensiyadan ibarətdir. Şəxsi kompetensiya (özünüdərk, özünüidarə) və sosial kompetensiya (sosial məlumatlılıq və ünsiyyətin idarə edilməsi) [6].

Emosional intellektlə bağlı olan nəzəriyyələr iki əsas modelə istinad edir. Qabiliyyətlər modeli (emosional intellekti qabiliyyət növü kimi izah edir) və qarışıq model (sosial bacarıqlar kimi qiymətləndirir). Emosional intellekti tədqiq edən əsas məktəblər isə D. Qoulman, J. Mayer, R. BarOn məktəbi hesab olunur[8].

İQ və emosional intellekt (Eİ) vəhdətdə şəxsiyyəti formalaşdırsa da onları eyniləşdirmək olmaz. Əsas problemimiz təhsilalanları şəxsiyyət kimi formalaşdıran zaman savada o qədər önəm veririk ki, təhsilalanın özünə və ətrafa münasibətini unuduruq. Şagirdlərin çox vaxt rəsm, musiqi, əmək, idman dərslərinə az vaxt ayrılması, lakin riyaziyyat, dil və s. dərslərinə isə daha çox vaxt ayrılması ilə bağlı şikayətləri emosional intellektin inkişafına olan ehtiyacdan irəli gəlir[4].

Qeyd etsək yanılmarıq ki, insanlar qarşılıqlı münasibətlərin vasitəsilə uğurlu gələcəyə nail olurlar. Emosional intellektin inkişafının vacibliyini XX əsrin sonlarına doğru aşkar edən alimləri emosional intellekti necə inkişaf etdirək sualı narahat edirdi. Bu sualın cavabını isə sosio-emosional öyrənmədə tapdılar.

Sosio-emosional öyrənmə emosional intellektlə bağlı aparılan araşdırmalar nəticəsində ortaya çıxdığını qeyd etsək yanılmarıq. Emosional intellektin 5 əsas komponenti ilə sosio-emosional öyrənmənin atributları arasında oxşarlığın olması bir çox alimlər tərəfindən (J.M. Elias və D.C. Moceri) xüsusi olaraq vurğulanır.

Burada əsas məsələlərdən biri emosional intellektin inkişaf etdirilməsinin yol və vasitələri ilə bağlıdır[1].

Bu istiqamətdə aparılmış tədqiqatlarda emosional intellektin inkişafı üçün istifadə olunan ən geniş yayılmış texnikalara aşağıdakıları aid edirlər.

1. Özünə məktub – Bu texnika tətbiq olunan zaman təhsilalanlara tapşırıq verilir ki, 5 dəqiqə ərzində özlərinə ən sevmədiyi, dözülməz hesab etdiyi xüsusiyyətləriylə bağlı məktub yazsınlar və bunu heç kimə oxumasınlar. Bu tapşırıq vasitəsilə təhsilalanlar asanlıqla öz səhvlərin nəticə çıxara və özünəinamı formalaşdıra bilər[8].

2. Ortaq cəhət – Bu tapşırıq zamanı 5 dəqiqə ərzində parta yoldaşları ortaq cəhətlərini müzakirə edirlər. Ünsiyyət qurmaq, sosiallaşmaq üçün əlverişli texnikadır[8].

3. Gülməli hadisə danışmaq – Parta yoldaşları 5 dəqiqə ərzində keçən həftə başlarına gələn 2 gülməli hadisəni bir – birilə bölüşürlər. Bu texnika təhsilalanlara özünüifadə etməyə və əyləncəli mühit yaratmağa şərait yaradır[8].

4. Emosiyalar – Təhsilalan 3 dəqiqə ərzində mümkün qədər çox emosiya adı vərəqə qeyd etməlidir. Bunun vasitəsilə təhsilalanlarda öz hislərini adlandırmaq bacarığı formalaşır[8].

5. Emosiyaların əlaqələndirilməsi – Təhsilalanlar parta yoldaşları ilə bundan əvvəlki tapşırıqda qeyd etdikləri emosiyaları əlaqələndirməlidir[8].

6. Təşəkkür oyunu – Təhsilalan 3 dəqiqə ərzində onun üçün çox böyük yaxşılıq etmiş insanı xatırlamalı və həmin hadisə, insanla bağlı olan təəssüratlarını bölüşməlidir[8].

Araşdırmalar sübut edir ki, sosio-emosional öyrənmənin məktəbəqədər müəssisələrdə və orta məktəblərdə tətbiqi nəticəsində daha effektiv nəticə əldə etmək olar.

Orta təhsil müəssisələrində psixodrama qruplarının təşkil olunması, psixoloji oyunların həyata keçirilməsi, dərslərin oyunlar vasitəsilə tədris olunması, psixologiya dərslərinin ayrıca fənn kimi tədris olunması və rəsm, musiqi dərslərinin art terapiya şəklində həyata keçirilməsi emosional intellektin inkişafı üçün əvəzolunmaz olardı. Nəzərə alsaq ki, ibtidai sinifdən dərhal sonra təhsilalanlar yeniyetməlik dövrünün ağır böhranına məruz qalırlar aqressivliyi azaldacaq və özlərini kəşf edə biləcəkləri fəaliyyətlər məqsədəuyğun olardı.

**Problemin praktiki əhəmiyyəti.** Məqalədə irəli sürülən elmi – nəzəri fikirləri, texnikaları müəllimlər tərəfindən gündəlik dərs praktikasında şagirdlərin fəallığının artırılmasında, təhsil işçiləri, praktik psixoloqlar, valideynlər, bu sahədə tədqiqat aparan elmi işçilər öz fəaliyyətlərində istifadə edə bilərlər.

**Problemin elmi yeniliyi.** K. Əliyevanın "Şəxsiyyətin formalaşmasında emosional intellektin rolu" adlı monoqrafiyasını nəzərə almasaq, Azərbaycan psixoloji ədəbiyyatında emosional intellektlə bağlı kifayət qədər etibarlı mənbələrin olmaması bu mövzuda yazılan elmi əsərlərin ilk olmasına şərait yaradır. Bir çox elmi ədəbiyyatlardan fərqli olaraq İQ və Eİ-nin vəhdətdə araşdırılması, emosional intellektin inkişaf etdirilməsi üçün texnikalara istinad olunması ilklərdən hesab oluna bilər.

**Nəticə** olaraq qeyd edə bilərik ki, bu sahədə toplanmış təcrübə kifayət qədər zəngin deyil və real həyatda tətbiq oluna bilməsi üçün təhsil siyasətində köklü dəyişikliklər edilməlidir. Araşdırmalar da sübut edir ki, verilən informasiyaları mənimsəmək kifayət deyil. Təhsilalanların emosional zəkalarının inkişaf etdirilməsi gələcəklərinə birbaşa təsir edir. Emosional situasiyalarda hislərini idarə edə bilmək gənclərə uğur qazandıran əsas amillərdəndir.

Sosio-emosional öyrənmə bir çox müəssisələrdə seminarlar şəklində işçilərə tədris oluna və uğurlu nəticə əldə oluna bilər. Bir çox qərb ölkələri bunu tətbiq edir. Təhsil siyasətinə bu layihənin əlavə olunması isə daha uğurlu gələcəyə ümidləri artır.

**Ədəbiyyat:**


1. Elias, M.J. Promoting social and emotional learning: Guidelines for educators / M.J. Elias, E. Joseph, P. Roger, S. Karin, T. Mark, M. Norris, K. Rachael, E. Mary, S. Schwab, P. Timothy [və b.] // Alexandria, VA: Association for Supervision and Curriculum Development, - 1997. – 176 s.
2. Goleman, D. Duygusal zekâ neden IQ'dan daha önemlidir? / B.S.Yüksel, - İstanbul: Varlık Yayınları, - 2003. – 952 s.
3. Samancı O, Uçan Z. Çocuklarda Sosyal Beceri Eğitimi // - Erzurum: Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, - 2017. № 1, - s. 281-288
4. Uşaklı H. Sosyal Duygusal Öğrenme nedir? Neden önemlidir? (İnsan ilişkilerinde 5 duygu alanı) // - Sinop: Sinop Üniversitesi Sosyal Bilimler Dergisi, - 2017. № 2, - s. 1-16.

5. Azərbaycan Respublikası Təhsil İnstitutu // Oyun əsaslı öyrənmənin şagirdlərin sosial – emosional inkişafında rolu – Bakı, 2023 [https://arti.edu.az/2023/10/19/oyun-%C9%99sasli-oyr%C9%99nm%C9%99nin-sagirdl%C9%99rin-sosial-emosional-inkisafinda-rolu/]
6. Təhsil işçilərinin peşəkar inkişafı institutu // Emosional İntellekt: nədir və nəyə lazımdır – Bakı, 2018.[https://www.tipii.edu.az/az/article/268-emosional-intellekt-nadir-va-naya-lazimdir]
7. Təhsil işçilərinin peşəkar inkişafı institutu // Emosional intellekti inkişaf etdirən texnikalar – Bakı, 2019. [https://www.tipii.edu.az/az/article/523-emosional-intellekti-inkisaf-etdiran-texnikalar]
8. https://psixologiyainstitutu.az/2021/07/28/emosional-intellekt-n%C9%99z%C9%99ri-baxislarin-t%C9%99hlili/
9. https://az.wikipedia.org/wiki/Emosional_z%C9%99ka
10. https://tr.wikipedia.org/wiki/IQ

**E-mail:** khaverbakikhanova@bsu.edu.az
**Redaksiyaya daxil olub:** 19.04.2024